# ƏDLİYYƏ

**AZƏRBAYCAN RESPUBLİKASI ƏDLİYYƏ NAZİRLİYİNİN ORQANI**

№ 09 (222) | sentyabr 2022-ci il | www.justice.gov.az qiyməti 95 qəpik


## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

# Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında



2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur.

Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir.

Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi istedadı onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir. Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir.

Zamanın hökmü ilə ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşmışdır. Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir. Heydər Əliyevin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir.

Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri birbirini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Ulu Öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir. Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrilmiş və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edilmişdir. Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur.

Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir.

Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı - Milli Qurtuluş Günü kimi qeyd edir.

Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev İli" elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 29 sentyabr 2022-ci il*

# Prezident İlham Əliyevin Laçın rayonuna səfəri





*Laçın şəhərində Azərbaycan Bayrağının ucaldılması*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də Laçın rayonunda səfərdə olub.**

Dövlətimizin başçısı Kəlbəcər-Laçın avtomobil yolunun 35-ci kilometrliyində Laçın Beynəlxalq Hava Limanına 2400 metr uzunluğunda giriş tunelinin inşası ilə tanış olub. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan mühüm əhəmiyyətə malik yol infrastrukturu olan uzunluğu 76,3 kilometr olan Kəlbəcər-Laçın avtomobil yolunun və yol üzərində tunellərin inşası davam etdirilir.

Kəlbəcər-Laçın avtomobil yolu başlanğıcını Kəlbəcər rayonunun Qamışlı kəndindən götürməklə işğaldan azad edilmiş Laçın rayonunun ərazisindən keçir. Yeni yol bu rayonların bir çox yaşayış məntəqələri ilə yanaşı, rayon mərkəzinə və yenicə inşasına başlanılmış Laçın Beynəlxalq Hava Limanına qədər rahat gediş-gəlişi təmin edəcək.

Prezident İlham Əliyev Laçın şəhərində Azərbaycan Bayrağını ucaldıb. Dövlətimizin başçısı qırx dörd günlük Vətən müharibəsinin sonunda kapitulyasiya aktına imza atmağa məcbur olan Ermənistanın Ağdam, Kəlbəcər və Laçın rayonlarının işğal edilmiş hissəsindən öz qoşunlarını çıxardığını, Laçının cənub, Kəlbəcərin şimal hissəsinin müzəffər Azərbaycan Ordusu tərəfindən işğalçılardan azad edildiyini bildirib. Qeyd edib ki, Ermənistanı Xankəndi ilə birləşdirən avtomobil yolu Laçın şəhərinin ortasından keçdiyi üçün şəhər nəzarətimizdən kənarda qalmışdı. Ancaq 9 noyabr tarixli bəyanata əsasən alternativ yolun qısa müddətdə çəkilişi başa çatdırılaq bu il avqustun əvvəlinə hazır olduğunu, orada yaşayan ermənilərin çıxmaqla bağlı avqustun 25-dək əlavə vaxt verilməsi barədə xahişinə humanistlik göstərilərək imkan yaradıldığını söyləyən ölkə rəhbəri avqustun 26-da Azərbaycan Ordusunun Laçın şəhərinə daxil olduğunu və Laçın şəhərinin qaytarıldığını vurğulayıb.

Laçın şəhərinin azad edilməsini tarixi hadisə adlandıran dövlətimizin başçısı şəhərin bütün Laçın rayonu, işğal altında olmuş bütün başqa yaşayış məntəqələri kimi erməni vandalizminə məruz qaldığını, bəzi yerlərdə qanunsuz məskunlaşma aparıldığını bildirib, xüsusi strateji əhəmiyyətini, çətin relyefi, ağır, soyuq iqlimi nəzərə alınaraq, Laçın və Kəlbəcər rayonlarının azad edilməsinin xüsusi əhəmiyyət kəsb etdiyini qeyd edib.

Laçın şəhəri ilə birlikdə Zabux və Sus kəndlərinin də işğalçılardan azad edildiyini deyən Ali Baş Komandan şəhidlərimizin canı, qanı bahasına, qəhrəman əsgər və zabitlərimizin fədakarlığı sayəsində bu gün bu torpaqlara qayıtdığımızı söyləyib. 2016-cı ilin Aprel döyüşlərini, ondan iki il sonra Naxçıvanda "Günnüt" əməliyyatını xatırladan Prezident İlham Əliyev Vətən müharibəsindən dərhal sonra Ermənistanla sülh müqaviləsinin imzalanmasını təklif etdiyini, lakin yenə də vaxt uzadaraq ölkəmizə qarşı hərbi təxribatlara əl atdığını, müharibədən sonra, 2021-ci ildə Laçın rayonu ərazisində 1400-dən çox yeni mina döşəndiyini, 240-dan çox Azərbaycan vətəndaşının mina partlayışı nəticəsində həlak olduğunu və ya ağır yaralandığını bildirib. Qeyd edib ki, sentyabrın 13-də ölkəmizə qarşı növbəti təxribat törədilərkən Azərbaycan Ordusu cavab verərək düşməni yenə də yerinə oturtdu: "Sərhəd boyunca əldə etdiyimiz mövqelər imkan verir ki, biz istənilən erməni təxribatını qabaqcadan görək və lazımi tədbirlər görək. Biz ta Murov dağından Araz çayına qədər Azərbaycan-Ermənistan sərhədində əlverişli mövqelərdəyik. Bu mövqelər bizə həm hərbi üstünlük verir, həm böyük əraziyə vizual nəzarət imkanı yaradır, o cümlədən önəmli kommunikasiya xətlərinə nəzarət etməyə imkan verir və biz artıq bu bölgələrdə yerləşirik".

Dövlətimizin başçısı Laçın şəhərinin bərpası ilə bağlı artıq hazırlıq işlərinin başladığını qeyd edərək həyata keçirilən yol, enerji infrastrukturunun yaradılması üzrə tədbirlərə toxunub, Laçın şəhərinin mərkəzində ucaldılan milli bayrağımızın əbədi dalğalanacağını vurğulayıb.

Daha sonra Azərbaycan Prezidenti Laçın şəhərinin mərkəzi küçəsində ermənilərin törətdikləri dağıntılara baxıb, şəhərin ərazisini seyr edib. Həmçinin şəhərdə inşa ediləcək 110/35/10 kV-luq "Laçın" Qovşaq Yarımstansiyasının təməlqoyma mərasimində iştirak edib.

Ümumi gücü 80 meqavatamper olacaq bu yarımstansiya qovşaq funksiyasını daşıyacaq. Belə ki, Füzulidəki "Şükürbəyli" yarımstansiyasından çıxaraq "Cəbrayıl", "Zəngilan", "Qubadlı" yarımstansiyalarına, oradan isə "Güləbird" Su Elektrik Stansiyası ilə əlaqələnən 110 kV-luq ikidövrəli xətt, "Daşkəsən" yarımstansiyasından "Kəlbəcər" və "Qorçu" yarımstansiyalarına çəkilən 110 kV-luq ikidövrəli xətt, həmçinin "Şükürbəyli" yarımstansiyasından "Füzuli" və "Şuşa" yarımstansiyalarına gətirilən 110 kV-luq ikidövrəli xətt "Laçın" şəhər yarımstansiyası ilə əlaqələndiriləcək.







*Kəlbəcər-Laçın avtomobil yolunda tunelin inşası ilə tanışlıq, "Laçın" Qovşaq Yarımstansiyasının təməlinin qoyulması*

# 27 SENTYABR - AZƏRBAYCANDA ANIM GÜNÜDÜR




## Birinci vitse-prezident Mehriban Əliyeva Anım Günü ilə bağlı paylaşım edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi twitter, facebook, instagram hesablarında 27 Sentyabr - Anım Günü ilə əlaqədar paylaşım edib.

Paylaşımda deyilir:

"Uca Tanrıdan şəhidlərimizə rəhmət, onların ailələrinə güc və səbir diləyirəm!"




## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonunda və Şuşa şəhərində olublar






Anım Gününə həsr olunmuş xatirə lövhəsinin önünə gül dəstələrinin qoyulması



Bir dəqiqəlik sükut

**Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonuna səfər ediblər.**

Dövlətimizin başçısı və birinci xanım Füzuli rayonunun Qaraxanbəyli kəndində 27 Sentyabr - Anım Gününə həsr olunmuş xatirə lövhəsinin önünə gül dəstələri qoyublar. Azərbaycan Prezidenti burada çıxış edib.

### Prezident İlham Əliyevin çıxışı

- Bu gün Azərbaycanda Anım Günüdür. Bütün Azərbaycan xalqı şəhidlərimizin əziz xatirəsini yad edir. Allah bütün şəhidlərimizə rəhmət etsin. Şəhidlərimiz Vətən, torpaq uğrunda öz canlarını fəda etdilər. Biz öz şəhidlərimizlə fəxr edirik. Qəhrəman əsgər və zabitlərimizlə fəxr edirik. Şəhidlərimizin qanı yerdə qalmadı, biz şəhidlərimizin qanını aldıq. Döyüş meydanında qisasımızı aldıq. Doğma torpaqlarımızı düşməndən azad etdik, ölkəmizin ərazi bütövlüyünü bərpa etdik.

44 günlük Vətən müharibəsi şanlı tariximizdir. Azərbaycan xalqı bütün gücünü səfərbər edib yumruq kimi birləşərək düşməni doğma torpaqlarımızdan qovdu. Bütün Azərbaycan xalqı birlik, iradə göstərmişdir. Qəhrəman əsgər və zabitlərimizin fədakarlığı, qəhrəmanlığı sayəsində bu gün biz azad edilmiş torpaqlarda qurub-yaradırıq, şəhərlərimizi, kəndlərimizi bərpa edirik və həm də şanlı Zəfərimizlə fəxr edirik. Eyni zamanda, fəxr edirik ki, biz - bu torpaqların sahibləri bu torpaqlara yenidən həyatı qaytarırıq.

Şəhidlərimizin şərəfinə bu abidə - bu qaya parçası burada, Qaraxanbəyli kəndinin yaxınlığında ucaldılıb. Qaraxanbəyli kəndi və digər beş kənd İkinci Qarabağ müharibəsinin ilk günündə azad edilmişdir. Qaraxanbəyli, Qərvənd, kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı - Füzuli rayonunun kəndləri və Cəbrayıl rayonunun kəndləri - Böyük Mərcanlı və Nüzgar kəndi müharibənin ilk günündə azad edilmişdir. İlk şəhidləri biz məhz burada, bu yerdə vermişik. Bu abidənin




yanında düşmənin səngəri yerləşirdi. Bu istiqamətdə beş-altı müdafiə xətti mövcud idi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bu müdafiə xəttini və bundan sonrakı müdafiə xətlərini yarmaq üçün ölümə gedirdi. Sözün əsl mənasında, ölümə gedirdi, öz canını fəda edirdi ki, üçrəngli Bayrağımız Şuşada və o vaxt işğal altında olan digər bütün torpaqlarda dalğalansın. Öz canını fəda edirdi ki, Azərbaycan xalqı ləyaqətini bərpa etsin, ədaləti bərpa etsin və xalqımız öz torpaqlarına qayıtsın.

Bu istiqamətdən düşmənin birinci müdafiə xəttini yararaq bizim Zəfər yürüşümüz başlamışdır. 44 gün ərzində Azərbaycan Ordusu hər gün irəliyə gedirdi. Dayanmadan, durmadan, usanmadan hər gün qan tökərək, şəhidlər verərək irəliyə gedirdi, Zəfərə doğru gedirdi. Bir gün belə dayanmadı, bir gün belə geriyə addım atmadı, ancaq irəli getdi, düşməni qova-qova döyüş meydanında tarixi Zəfər çaldı. 44 gün ərzində 300-ə yaxın şəhər və kənd düşməndən azad edilmişdir. Düşmən məcbur olub kapitulyasiya aktını imzalayaraq məğlubiyyətini qəbul etdi və o vaxt hələ işğal altında olan torpaqlardan çıxmağa məcbur olmuşdur.

Biz xoşbəxt nəsilik ki, bu şərəfli missiya bizim üzərimizə düşüb. Xoşbəxt nəsilik ki, biz bu tarixi hadisənin həm şahidləriyik, həm də iştirakçılarıyıq. Bizdən sonra gələn nəsillər həmişə bu şanlı tarixlə fəxr edəcəklər. Biz fəxr edirik ki, bu torpağın övladlarıyıq. Fəxr edirik ki, döyüş meydanında öz haqqımızı bərpa etdik, düşməni məğlub etdik və bundan sonra biz müzəffər xalq kimi, qalib ölkə kimi əbədi yaşayacağıq.

Bu gün şəhidlərimizin əziz xatirəsini yad edərək, bir daha hər birimiz özünə söz verməlidir, vəd verməlidir, and içməlidir ki, biz müstəqilliyimizin keşiyində əbədi duracağıq, biz ərazi bütövlüyümüzün keşiyində əbədi duracağıq. Qoymayacağıq ki, bir daha düşmən başını qaldırsın, qoymayacağıq ki, bir daha bizim üçün təhdid yaratsın. Əgər bunu görsək, dərhal hərəkətə keçəcəyik. Əminəm ki, buna ehtiyac olmayacaq. Çünki ölkəmizin artan gücü, o cümlədən hərbi gücü müstəqilliyimizin, rahat həyatımızın təminatçısıdır, onun qarantıdır.

Bir daha şəhidlərimizə rəhmət diləyərək qeyd etməliyəm, bildirməliyəm ki, onların əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.

***

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Anım Günü ilə əlaqədar saat 12.00-da Vətən müharibəsi şəhidlərinin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

***

Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərində Yuxarı Gövhər Ağa məscidini ziyarət edib, burada Heydər Əliyev Fondu tərəfindən aparılan yenidənqurma və bərpa işləri ilə tanış olublar.

Səfər zamanı dövlətimizin başçısı və birinci xanım həmçinin, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyinin binasında yaradılan şəraitlə, inşa edilən yeni yaşayış kompleksində, hotel və konfrans mərkəzində, Mehmandarovların malikanə kompleksində, təmir və bərpa edilən hoteldə və 1 saylı tam orta məktəbin binasında aparılan tikinti işlərinin gedişi ilə tanış olublar.

Eyni zamanda Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin mənzil-kommunal və təmir xidmətinin inzibati binasında bərpa işlərinin gedişi ilə maraqlanılıb.

# Anım Günü: Əbədiyyətə qovuşan şəhidlərimiz öz adlarını Azərbaycan xalqının şanlı tarixinə əbədi yazdırıb

Xalqımızın tarixinə qızıl hərflərlə yazılmış Vətən müharibəsinin başlanmasından iki il ötür. Otuz ilə yaxın işğal altında qalan torpaqlarımız qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına işğaldan azad edildi. Azərbaycan hər zaman mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bütün şəhidlərimizin xatirəsini uca tutur. Əbədiyyətə qovuşan şəhidlərimiz öz adlarını Azərbaycan xalqının şanlı tarixinə əbədi yazdırıb.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli Sərəncamına əsasən 27 sentyabrın Anım Günü kimi qeyd edilməsi Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiramın ifadəsidir.

### "Dəmir yumruq" əməliyyatı: Azərbaycan əsgəri 44 gündə bir addım da geri çəkilmədi

Əks-hücum əməliyyatının ilk saatlarında cəbhə xəttindən sevindirici xəbərlər gəlməyə başladı. Düşmənin xüsusilə möhkəmləndirilmiş ön müdafiə xəttini yaran Azərbaycan Ordusunun Qaraxanbəyli, Nüzgar, Yuxarı Əbdürrəhmanlı, Böyük Mərcanlı, Kənd Horadiz və Qərvənd kəndlərini, Ağdərə rayonunda və Murovdağ silsiləsində mühüm strateji yüksəklikləri azad etməsi qarşıdakı böyük Qələbəmizin ilk müjdəsi oldu.

***"Dəmir yumruq" əməliyyatının qısa xronikası:*** Azərbaycan Ordusu oktyabrın 3-də şimal cəbhəsində mühüm strateji əhəmiyyətə malik Madagiz kəndini işğaldan azad etdi. Bundan bir gün sonra Cəbrayıl şəhəri, oktyabrın 9-da isə Hadrut qəsəbəsi düşməndən təmizləndi. Ermənistan silahlı qüvvələrinin "məğlubedilməzlik" mifini darmadağın edən rəşadətli ordumuz oktyabrın 17-də Füzuli şəhərində Azərbaycan bayrağını ucaltdı. Oktyabrın 18-də - Müstəqillik Günündə Azərbaycanın üçrəngli bayrağı qədim Xudafərin körpüsü üzərində dalğalanmağa başladı. Oktyabrın 20-də isə Zəngilan şəhəri işğaldan azad olundu.

Ordumuz oktyabrın 25-26-da Zəngilan, Cəbrayıl və Qubadlı rayonlarının 17 kəndini və Qubadlı şəhərini azad etdi. Oktyabrın 28-dən noyabrın 7-dək olan müddətdə 53 kəndi və bir neçə strateji yüksəkliyi azad edən Azərbaycan Ordusunun növbəti hədəfi Qarabağın döyünən ürəyi Şuşa şəhəri idi. Xüsusi Təyinatlı Qüvvələrin döyüşçüləri dağlardan, meşələrdən, cığırlardan keçərək, Şuşanın sıldırım qayalarına dırmaşaraq, bir neçə istiqamətdən şəhərə daxil oldular. Qəhrəman ordumuz dünya hərb tarixində özünəməxsus yer tutan Şuşa əməliyyatını uğurla başa çatdırdı. Ali Baş Komandan İlham Əliyev Şuşanın azad edilməsi müjdəsini noyabrın 8-də səhər saatlarında Şəhidlər xiyabanından verdi.

Şuşanın azad edilməsi ilə Ermənistan ordusunun müqavimət gücü tamamilə sarsıldı. Noyabrın 9-da Azərbaycan Ordusu daha 71 kəndi, bir qəsəbəni və 8 strateji yüksəkliyi düşməndən təmizlədi.

Düçar olduqları ağır məğlubiyyət Paşinyan hakimiyyətini kapitulyasiya aktını imzalamağa məcbur etdi. Noyabrın 9-dan 10-na keçən gecə Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyan tərəfindən üçtərəfli Bəyanatın imzalanması ilə hərbi əməliyyatlar dayandırıldı. Həmin Bəyanata uyğun olaraq, Ermənistan noyabrın 20-də Ağdam, 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonlarını Azərbaycan Silahlı Qüvvələrinə təhvil verdi.

Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək ümumilikdə 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. Bu, dünyanın müasir hərb tarixində misli görünməmiş uğurlu hərbi əməliyyat idi. Ermənistan ordusu demək olar ki, tamamilə məhv edildi.

### XXI əsrin müharibəsini aparan Azərbaycanın müasir döyüş təcrübəsi dünyanın diqqət mərkəzindədir

XXI əsrin müharibəsini aparan Azərbaycanın döyüş təcrübəsi və taktikası bu gün dünyanın inkişaf etmiş ölkələrinin hərbi məktəblərində öyrənilir. Çətin relyef



27 sentyabr 2020-ci il. Prezident İlham Əliyev xalqa müraciət edərkən



27 sentyabr 2021-ci il. Anım Günündə Bakıda yürüş



Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyi konsepsiya layihəsi

şəraitində cəmi 44 gün ərzində ən müasir döyüş silahlarının tətbiqi ilə şanlı qələbə qazanan Azərbaycan Ordusu yüksək peşəkarlıq nümayiş etdirdi. Ordumuz ilk gündən düşmənin müdafiə xəttini yararaq sonrakı 44 gündə yalnız irəli getdi. Ermənistan Ordusunda on mindən çox əsgər fərarilik etdiyi halda, Azərbaycan Silahlı Qüvvələrində bir nəfər də fərari olmadı.

Vətən müharibəsində şanlı Qələbə xalqımızın igid övladlarının qanı-canı bahasına qazanılıb, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən qanlı döyüşlərdə 2900-dən çox əsgər və zabitimiz şəhid olub. Şəhidlərimizin və qazilərimizin qəhrəmanlığı dövlətimiz və xalqımız tərəfindən yüksək qiymətləndirilir. Sentyabrın 27-si Prezidentin Sərəncamı ilə şəhidlərimizin xatirəsinə Anım Günü elan olunub. Xalqımız və bütün dünya azərbaycanlıları şəhidlərin əziz xatirəsini təkcə bu gün deyil, həmişə ehtiramla yad edir.

Prezident İlham Əliyevin 2020-2021-ci illərdə imzalandığı sərəncamlarla Vətən müharibəsinin ümumilikdə 159 mindən çox iştirakçısı müxtəlif orden və medallarla təltif olunub.

Azərbaycan əsgərinin İkinci Qarabağ müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi zəfərin təbliği, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə ötən il sentyabrın 27-də Bakıda Vətən müharibəsi memorial kompleksinin və Zəfər muzeyinin təməli qoyulub.

### Qələbələrimizi təmin edən əsas amil: xalq-dövlət-ordu birliyi

Dünya təcrübəsinə əsaslanaraq deyə bilərik ki, müharibələrin taleyini həll edən ən başlıca amil xalq-dövlət-ordu birliyidir. İkinci Qarabağ müharibəsində şanlı Zəfəri xalqımızın Vətən torpaqlarının azad edilməsi naminə öz dövləti və ordusu ətrafında sıx birləşməsi təmin etdi. Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar, habelə Azərbaycanın haqq işinə dəstək verən digər xalqların nümayəndələri erməni lobbisinin çirkin kampaniyalara qarşı fədakarlıqla mübarizə apardılar. Etnik və dini mənsubiyyətindən asılı olmayaraq ölkəmizin bütün vətəndaşları görünməmiş həmrəylik nümayiş etdirdi, ön və arxa cəbhədə sarsılmaz birlik yarandı. Bu birlik və həmrəylik haqlı olaraq "Dəmir yumruq" kimi səciyyələndirilir.

Dövlətimizin başçısının yüksək siyasi məharəti sayəsində diplomatik cəbhədə də böyük uğurlar qazanıldı. Prezident İlham Əliyev müharibə dövründə dünyanın ən böyük media qurumlarına 30-dan çox müsahibə verdi, münaqişə ilə bağlı əsl həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırdı.

Azərbaycan zəfərdən-zəfərə doğru irəliləməkdədir. Vətən müharibəsində qazanılmış Qələbədən dərhal sonra azad olunmuş ərazilərin bərpasına başlanıldı. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə azad Qarabağımızda mühüm infrastruktur obyektlərinin açılışı oldu, yeni layihələrə start verildi. Şuşaya böyük Qələbənin rəmzi olan Zəfər yolu çəkildi. Füzulidə Beynəlxalq Aeroport açıldı. Zəngilan rayonunda tikilən "ağıllı kənd"ə ilkin olaraq 66 ailə (ümumilikdə 326 nəfər) köçürüldü. Bununla da "Böyük Qayıdış"ın başlanğıcı qoyuldu.

Budəfəki Anım Günü ərəfəsində daha bir tarix hadisənin qürur və sevincini yaşadıq. Azərbaycan Ordusu Laçın şəhərinə yerləşdi, Zabux və Sus kəndləri nəzarətə götürüldü. Prezidentimiz sentyabrın 21-də Laçın şəhərində Azərbaycan Bayrağını ucaltdı.

### Şəhid ailələrinə və qazilərə dövlət qayğısı

Ölkəmizdə şəhid ailələri, müharibə veteranları, qazilər dövlətimizin diqqəti və hərtərəfli qayğısı ilə əhatə olunub. Prezident İlham Əliyev bu il mayın 2-də Bakının Sabunçu rayonunda şəhid ailələri və müharibə əlilləri üçün nəzərdə tutulan yeni yaşayış kompleksinin açılışında deyib ki, dövlət şəhid ailələrinin problemlərinin həlli üçün əlindən gələni edir və edəcək.

Bu diqqət və qayğını əyani şəkildə əks etdirən bir neçə fakt və rəqəmə nəzər salaq: Postmüharibə dövründə şəhid ailə üzvləri və müharibə iştirakçılarından ibarət 93 min nəfərə 103 min sosial ödəniş təyin olunub. Mənzil proqramı beş dəfə genişləndirilib, 2021-ci ildə 3000, postmüharibə dövründə 3500 mənzil verilib. Beləliklə, ümumilikdə 12500 şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlə, 7400 müharibə əlili avtomobillə təmin olunub.

Vətən müharibəsinin 200 hərbçisi, ümumilikdə 300 müharibə əlili son nəsil protezlərlə, 1400 müharibə əlili 17 min reabilitasiya vasitəsi, 5 min ailə sosial-psixoloji, 1500 şəxs reabilitasiya xidmətləri ilə təmin edilib. 11 min şəxs aktiv məşğulluq proqramlarına cəlb olunub, vahid əlaqələndirmə mərkəzləri tərəfindən isə 30 min şəxsə xidmətlər göstərilib.

### Heç kim unudulmur, heç nə yaddan çıxmır

Prezident, Ali Baş Komandan İlham Əliyev bir məqamı da dəfələrlə vurğulayıb: "Biz heç nəyi unutmamışıq. Biz bunu unuda bilmərik. Biz şəhidlərimizi unuda bilmərik, Xocalı qurbanlarını unuda bilmərik, dağılmış şəhərlərimizi unuda bilmərik. Biz artıq Birinci və İkinci Qarabağ müharibələrinin şəhidlərinin qanını aldıq və qisasımızı döyüş meydanında aldıq". Prezidentin təbirincə desək, bizi Qələbəyə aparan ən başlıca amil milli ruh, ləyaqət, Vətənə sevgi idi və bunu gənc nəslin nümayəndələri, müstəqillik dövründə yetişən gənclər etdilər. Öz canlarını fəda edərək, ölümə gedərək bunu etdilər.

Biz Azərbaycan Ordusunun və əsgərinin gücünə, qətiyyətinə bu il sentyabrın 13-14-də bir daha şahid olduq. Ordumuz Ermənistan silahlı qüvvələrinin Kəlbəcər və Laçın rayonları ərazisində törətdiyi növbəti təxribatlara layiqincə cavab verərək düşməni yenə də yerinə oturtdu. Təəssüf ki, əks-hücum əməliyyatları zamanı 80 hərbi qulluqçumuz şəhid oldu. Onların qisası bu dəfə də artıqlaması ilə alındı.

Axıdılan şəhid qanları hədər getmir. Xalqımızın otuz illik arzusunu reallığa çevirən, Azərbaycanın hərbi qüdrətini bütün dünyaya göstərən, bizi qalib xalqa çevirən qəhrəman əsgər və zabitlərimiz bu gün işğaldan azad olunmuş torpaqlarımızın, Vətən sərhədlərinin müdafiəsində "Dəmir yumruq" kimi dayanmaqda davam edirlər.

**AzərTac**

# Sükut dəqiqəsi

**Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi sentyabrın 27-də saat 12:00-da ölkəmizin bütün ərazisində bir dəqiqəlik sükutla yad olunub.**

İnsanlar şəhid əsgər və zabitlərimizin ruhları qarşısında baş əyib, onların xatirəsinə dərin ehtiramlarını bir dəqiqəlik sükutla ifadə ediblər. Sükut dəqiqəsi zamanı dövlət bayraqları endirilib, nəqliyyatın hərəkəti dayanıb, avtomobillərdən səs siqnalları, Xəzər dənizinin sahil sularında sıralanan gəmilərdən fasiləsiz fit səsi verilib.

Həmin gün ölkəmizin bütün şəhər və rayonlarında, o cümlədən azad edilmiş ərazilərimizdə anım



mərasimləri keçirilib, Azərbaycandakı bütün dini məbədlərdə - məscidlərdə, kilsələrdə, sinaqoqlarda



şəhidlərimiz dərin ehtiramla yad olunub, qəhrəman Vətən övladlarının ruhuna dualar oxunub.

# Anım Günü ilə bağlı şəhidlərimizin xatirəsi Ədliyyə Nazirliyində ehtiramla yad edilib












**Ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Böyük Qələbə ilə başa çatan Vətən müharibəsində ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş qəhrəman övladlarımızın şücaəti xalqımız tərəfindən daim yüksək qiymətləndirilir, şəhidlərimizin xatirəsinə dərin ehtiram əlaməti olaraq dövlət başçısı tərəfindən 27 sentyabr - Azərbaycanda Anım Günü təsis edilib.**

Bununla bağlı Ədliyyə Nazirliyində və struktur qurumlarda anım tədbirləri keçirilib, nazirliyin rəhbərliyi və kollektivi tərəfindən II Fəxri xiyabanda Vətən müharibəsi qəhrəmanlarının, o cümlədən şəhid ədliyyə işçisi Ruhin Xəlilovun məzarı ziyarət olunaraq əklillər qoyulub, əziz xatirələri ehtiramla yad edilib.

Bu ərəfədə ədliyyə naziri Fikrət Məmmədov respublikamızın bölgələrində olarkən Ermənistanın ölkəmizə son hərbi təxribatının qarşısını alarkən şəhid olmuş hərbçilərimizin ailələrini ziyarət edərək dərin hüznlə başsağlığı verib, qayğıları ilə maraqlanıb.

Nazirlikdə keçirilən anım tədbirində saat 12:00-da şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Ədliyyə naziri çıxış edərək ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində Böyük Qələbəmizin qazanılmasında ordumuzun qəhrəmanlığından və şücaətindən bəhs edib, xalqımızın Vətən uğrunda canlarını fəda etmiş əsgər və zabitlərimizin ruhuna daim ehtiram göstərdiyini vurğulayıb.




Qeyd olunub ki, ulu öndər Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu ölkə başçısı tərəfindən müasir çağırışlara uyğun həyata keçirilərək daim möhkəmlənən Silahlı Qüvvələrimiz Vətənimizin keşiyində ayıq-sayıqlıqla dayanaraq Ermənistanın təxribatlarının qarşısını qətiyyətlə alır. Bu gün dövlət başçısının rəhbərliyi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fəal iştirakı ilə bərpa-quruculuq işləri aparılmaqla azad edilmiş ərazilərimiz dirçəlir, soydaşlarımız öz dədə-baba yurdlarına qayıdırlar.

Nazir Vətən müharibəsi iştirakçılarının və şəhid ailələrinin daim yüksək dövlət qayğısı ilə əhatə olunduğunu, sosial müdafiəsinin və rifahının yaxşılaşdırılması ilə bağlı ardıcıl tədbirlər görüldüyünü bildirib, onlara həssas münasibət göstərilməsinin hər kəsin vətəndaşlıq borcu olduğunu diqqətə çatdırıb.




Anım Günü ilə bağlı Ədliyyə Nazirliyi tərəfindən şəhid ailələri və hazırda müalicə olunan düşmənin təxribatlarının qarşısını alarkən yaralanmış hərbçilərimiz ziyarət olunub, sovqatlar təqdim edilib, yerli ədliyyə orqanları tərəfindən onlara hüquqi xidmət göstərilib.

Tədbirlər çərçivəsində gənc əməkdaşlar və könüllülərlə şəhid ailəsi və müharibə veteranlarının iştirakı ilə görüş keçirilib, ənənəvi qanvermə aksiyası təşkil olunub.

Nazirliyin muzeylərində Böyük Qələbəmizə, şəhidlərimizin xatirəsinə həsr olunan ekspozisiyalarla tanışlıq olub, kinozalda filmlər, slaydlar nümayiş etdirilib, ədliyyə işçiləri və hakimlər tərəfindən mətbuatda çıxışlar edilib, internet saytda, o cümlədən "Qarabağ Azərbaycandır" platformasında, sosial şəbəkə hesablarında məlumatlar paylaşılıb.

# Ədliyyə Nazirliyi tərəfindən şəhid ailələrinə diqqət və qayğı göstərilir








**Ölkə Prezidenti cənab İlham Əliyevin vətəndaşların müraciətlərinə, xüsusilə şəhid ailələrinin və qazilərin qayğılarına həssaslıqla yanaşılması ilə bağlı tələbləri Ədliyyə Nazirliyi tərəfindən daim diqqətdə saxlanılır.**

Dövlət başçısının tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq ədliyyə naziri Fikrət Məmmədov tərəfindən sentyabrın 16-da Zaqatala rayonunda Zaqatala, Balakən, Qax və digər bölgələrdən olan vətəndaşların qəbulu keçirilib.

Tədbirdən əvvəl ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunaraq önünə gül dəstələri qoyulub, əziz xatirəsinə dərin ehtiram bildirilib.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, xüsusilə Vətən müharibəsi iştirakçılarının, qazilərin və şəhid ailələrinin qayğılarına həssaslıqla yanaşılıb, ədliyyə fəaliyyəti ilə bağlı qaldırılan məsələlərin bəzilərinin yerindəcə həlli ilə bağlı tədbirlər görülüb, digərləri isə araşdırılması üçün nəzarətə götürülüb və müvafiq tapşırıqlar verilib.

Bölgə sakinləri dövlət başçısının vətəndaşlara göstərdiyi diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə edib, ölkə Prezidentinin tapşırıqlarına əsasən yerlərdə belə qəbulların təşkilindən məmnunluqlarını bildiriblər.

Səfər zamanı nazir bölgənin ədliyyə qurumlarının və məhkəmələrin iş şəraiti ilə tanış olub, vətəndaşların, xüsusilə dövlət başçısının və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yüksək diqqət və qayğısı ilə əhatə olunan şəhid ailələrinin və qazilərin müraciətlərinə daim həssas münasibət bəslənilməsi, layiqli xidmət göstərilməsi ilə bağlı tapşırıq və tövsiyələr verib, ədliyyə işçiləri və hakimlərlə müşavirə keçirib.

Müşavirədə Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribatların qarşısının alınması zamanı həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Çıxış edən nazir ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qələbə qazanan ölkəmizin bölgədə davamlı sülhün daim tərəfdarı olduğunu vurğulayıb, Ermənistan tərəfinin isə təxribatlara əl atmaqla sülh prosesini əngəllədiyini bildirib.

Qeyd edib ki, Ermənistanın hələ də işğalçı qüvvələrini torpaqlarımızdan çıxarmaması, azad edilmiş torpaqlarımızda aparılan bərpa-quruculuq işlərinə və soydaşlarımızın təhlükəsiz qayıdışına mane yaratmaq üçün ərazilərimizi minalamaqda davam etdirməsi beynəlxalq hüququn norma və prinsiplərinin, imzalanmış üçtərəfli bəyanatların tələblərinin kobud surətdə pozulmasıdır.

Nazir Ermənistan silahlı qüvvələrinin növbəti hərbi təxribatının qarşısının qətiyyətlə alındığını vurğulayaraq hərbçilərimizin şücaətindən və fədakarlığından bəhs edib, şəhidlərimizin xatirəsinin xalqımızın qəlbində əbədi yaşayacağını bildirib.

Səfər çərçivəsində ədliyyə naziri F.Məmmədov bölgədən olan şəhid ailələrinə baş çəkərək onlara dərin hüznlə başsağlığı verib, qayğıları ilə maraqlanıb. Şəhidlərimizin məzarları ziyarət olunaraq gül dəstələri qoyulub, əziz xatirələri ehtiramla yad edilib.

# Ermənistanın hərbi təxribatları barədə həqiqətlər Avropa nazirlərinin diqqətinə çatdırılıb






Avropa ədliyyə nazirlərinin konfransı, Dublin, İrlandiya, 29-30.09.2022-ci il



İrlandiyanın ədliyyə naziri Helen McEntee ilə görüş

**Sentyabrın 29-30-da İrlandiyanın Avropa Şurasının (AŞ) Nazirlər Komitəsində sədrliyi çərçivəsində Dublində Məişət, cinsi və gender zorakılığına son qoyulması mövzusuna həsr olunan Avropa ədliyyə nazirlərinin konfransı keçirilib. Tədbirdə ölkəmizi ədliyyə naziri Fikrət Məmmədov nümayəndə heyəti ilə təmsil edib.**



Xatirə şəkli

AŞ üzv dövlətlərinin ədliyyə orqanları rəhbərlərinin iştirak etdiyi konfransda Avropa Şurasının Baş katibi xanım Mariya Peyçinoviç Buriç, AŞ Parlament Assambleyasının Prezidenti Tiny Kox və İrlandiyanın ədliyyə naziri xanım Helen McEntee açılış nitqi ilə çıxış ediblər.

İnternetdə canlı yayımlanan tədbirdə qadınlara qarşı zorakılıqla mübarizə üzrə tədbirlər, bu sahədə mütəxəssislər üçün təlimlərin keçirilməsi və cinayət törətmiş şəxslərin islah olunması kimi aktual məsələlər müzakirə olunub, nazirlər tərəfindən təqdimatlar keçirilib.

Çıxış edən respublikamızın ədliyyə naziri Azərbaycanda məişət zorakılığına qarşı fəal mübarizə aparılaraq qanunvericilik, institusional və praktiki tədbirləri qeyd edib, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən bu sahədə Milli Fəaliyyət Planının təsdiq olunaraq həyata keçirildiyini bildirib. Avropa Şurası ilə əməkdaşlıqda məişət zorakılığına qarşı mübarizəyə dair layihənin icrasını, bu məsələnin həmçinin, 2022-2025-ci illər üzrə Azərbaycan üçün birgə Fəaliyyət Planının mühüm istiqamətlərdən olduğunu vurğulayıb.

Nazir qadınların hərbi münaqişələr zamanı zorakılığa məruz qalmasına toxunaraq bu problemlə üzləşmiş Azərbaycanda yüzlərlə qadının və hətta uşaqların Ermənistanın hərbi təcavüzünün qurbanı olduğunu qeyd edib.

Bildirib ki, müharibənin başa çatmasına baxmayaraq Ermənistan üçtərəfli bəyanat və Brüssel razılaşmaları üzrə öhdəlikləri kobud şəkildə pozaraq, müxtəlif təxribatlara əl atmaqla sülh prosesinə xələl gətirir.

F.Məmmədov Ermənistanın iki həftə öncə sərhədyanı ərazilərimizi atəşə tutaraq 80 hərbçinin həlak olması, 300-dək hərbçinin və 2 mülki şəxsin yaralanması ilə nəticələnən genişmiqyaslı təxribat törətdiyini diqqətə çatdıraraq ölkəmizin yalnız legitim hərbi hədəflərə yönələn lokal cavab tədbirləri gördüyünü bildirib.

Nazir bu təxribatların bilavasitə Ermənistanın səbəbkarı olduğunu bildirərək vurğulayıb ki, müharibədən sonra azad edilmiş ərazilərimizdə sürətlə aparılan genişmiqyaslı bərpa-quruculuq işləri üçün 3 milyard ABŞ dolları sərmayə qoyan Azərbaycan bölgədə gərginliyin yaranmasında qətiyyən maraqlı deyil və belə bir eskalasiyanın təşəbbüskarı ola bilməz. Əksinə ölkəmiz davamlı sülhün tərəfdarı olaraq hər zaman xoş niyyət nümayiş etdirir. Ermənistan isə müharibənin başa çatmasına baxmayaraq hazırda da ərazilərimizi kütləvi minalamaqda davam edərək 240-dan çox insanın mina qurbanı olmasına səbəb olub.

Konfrans çərçivəsində tədbirə ev sahibliyi edən İrlandiyanın və bir sıra digər dövlətlərin ədliyyə orqanlarının rəhbərləri ilə görüşlər keçirilərək əməkdaşlığa dair faydalı fikir mübadiləsi aparılıb.

# Ədliyyə orqanları ölkə Prezidentinin tapşırıqlarına uyğun olaraq gənclərlə komplektləşdirilir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurlu dövlət gənclər siyasəti həyata keçirilərək ölkəmizdə müasir dünyagörüşlü, vətənpərvər yeni nəsil formalaşıb. Gənclərin ictimai-siyasi həyatda fəallığı artır, onlar dövlət idarəçiliyində geniş təmsil olunurlar.**

Dövlət başçısının tapşırıqlarına uyğun olaraq ədliyyə orqanlarında da hazırlıqlı, müasir düşüncəli gənclərin qulluğa qəbuluna xüsusi önəm verilir, bununla bağlı seçim prosesi fasiləsiz aparılaraq davamlı müsabiqələr keçirilir.

Nazirlik tərəfindən həmçinin, penitensiar və tibb xidmətlərinin kadrlarla komplektləşdirilməsi üzrə ardıcıl tədbirlər görülür, bu sahədə ölkəmizin və xarici dövlətlərin ixtisaslaşmış təhsil müəssisələri ilə səmərəli əlaqələr qurularaq nazirlik üçün gənc kadrlar hazırlanır.

Bu istiqamətdə görülən işlər nəticəsində bu günədək 3.300 nəfərə yaxın şəxs ədliyyə orqanlarına qulluğa qəbul olunub. Onlar nazirlik üzrə müxtəlif sahələrdə uğurla fəaliyyət göstərir, peşəkar inkişafları və layiqli dövlət qulluqçusu kimi formalaşmaları təmin olunur, keçən müddətdə 230-dan çox hazırlıqlı ədliyyə işçiləri ali və digər dövlət orqanlarında məsul vəzifələrə irəli çəkiliblər, hakim adına layiq görülüblər. Hazırda çoxminli əməkdaşların təxminən yarısını gənclər, nazirliyin bir çox xidmətlərinin kadr korpusunun 70 faizə qədərini isə qulluğa qəbul edilən yeni nəsil ədliyyə işçiləri təşkil edir.

Bu günlərdə ədliyyə orqanlarında stajorluq və sınaq müddətini uğurla başa vurmuş şəxslərin daimi qulluğa, Penitensiar xidmətdə kiçik rəis heyətində çalışaraq fərqlənən növbəti bir qrup əməkdaşların orta rəis heyəti (zabit) vəzifələrinə, Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsinin builki məzunlarının işə təyinatları aparılıb.






Böyük əksəriyyətini gənclər təşkil edən yeni təyinat alan 76 nəfər əməkdaşla sentyabrın 9-da ədliyyə naziri Fikrət Məmmədovun görüşü keçirilib.

Tədbirdə çıxış edən ədliyyə naziri ümummilli lider Heydər Əliyevin müstəqilliyinə əbədi həyat verdiyi müasir Azərbaycan dövlətinin ölkə Prezidenti cənab İlham Əliyevin liderliyi ilə davamlı tərəqqisi və qüdrətlənməsi nəticəsində Vətənimizin ərazi bütövlüyünün bərpa edildiyini xüsusi vurğulayıb.

Müzəffər Ali Baş Komandanın ətrafında sıx birləşən Azərbaycan gənclərinin 44 günlük Vətən müharibəsində şanlı qələbəmizin əldə olunmasında önəmli rolundan, o cümlədən ədliyyə işçilərinin də cəbhəyə yollanıb döyüşlərdə mərdliklə iştirakından danışıb, yeni təyinat alan şəxslər sırasında müharibə iştirakçılarının və onların ailə üzvlərinin olmasını qeyd edib.

Bildirilib ki, işğaldan azad edilmiş doğma torpaqlarımız bu gün dövlət başçısının rəhbərliyi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fəal iştirakı ilə möhtəşəm quruculuq işləri aparılmaqla sürətlə bərpa olunur və Böyük Qayıdışın təzahürü olaraq soydaşlarımız artıq öz dədə-baba yurdlarına dönürlər. Şərqi Zəngəzurda inşası başa çatan Zəngilan Beynəlxalq Hava Limanına elə bu günlərdə AZAL-ın ən böyük sərnişin təyyarəsinin birinci uğurlu enişi olub.

Tədbirdə respublikamızın hərtərəfli inkişafına uyğun olaraq ədliyyə və məhkəmə sistemində aparılan islahatlar və tətbiq olunan yeniliklər barədə ətraflı məlumat verilib, əhaliyə göstərilən innovativ ədliyyə xidmətlərinə toxunularaq onların azad edilmiş ərazilərimizdə də müasir texnologiyalar tətbiq edilməklə səyyar qaydada təşkil edildiyi qeyd olunub. Eyni zamanda əhalinin hüquqi biliklərinin artırılması, qanunvericilikdəki yeniliklərlə daha əlçatan və rahat tanış olması məqsədilə hüquqi aktların vahid elektron bazasının (e-qanun.az) mobil tətbiqinin yenicə istifadəyə verildiyi və geniş ictimai təqdimatının keçirildiyi bildirilib.

Nazir gənclərin ədliyyə idarəçiliyində yaxından iştirakına hər cür şərait yaradıldığını bildirərək dövlət başçısının insanlara layiqli xidmət göstərilməsi, korrupsiyaya şərait yaradan halların yolverilməzliyi ilə bağlı tələblərini daim rəhbər tutmalarını ədliyyə işçilərinin diqqətinə çatdırıb. Onlara dövlətçilik ənənələrinə hər zaman sadiq olmaları, bilik və bacarıqlarını inkişaf etdirərək xidməti vəzifələrini məsuliyyətlə yerinə yetirmələri, icra intizamına və etik davranış qaydalarına dönmədən əməl etmələri barədə tapşırıqlar verib, uğurlu fəaliyyət arzulayıb.

Çıxış edən gənclər Ulu Öndərin yüksək amallarına daim sadiq qalaraq, Vətənimizin tərəqqisi naminə ölkə Prezidentinin ətrafında sıx birləşərək var qüvvələri ilə çalışmaq əzmində olduqlarını bildirib, onlara göstərilən etimadı doğrultmaq üçün vəzifələrini vicdanla yerinə yetirəcəklərinə, ədliyyə işçisi adını şərəflə daşıyacaqlarına və daim uca tutacaqlarına söz veriblər.

Yeni təyinat almış işçilərə ilk xüsusi rütbələrin poqonları və xidməti vəsiqələr verilib.

# Hakimliyə namizədlərlə yazılı imtahan keçirilib



**Ölkə Prezidenti cənab İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 03.04.2019-cu il tarixli Fərmanına uyğun olaraq məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi, o cümlədən məhkəmələrə əlçatanlığın yaxşılaşdırılması, ədalət mühakiməsinin səmərəliliyinin və şəffaflığın artırılması üzrə ardıcıl tədbirlər görülüb.**

Həmçinin, hakimlərin iş yükünün azaldılması, işlərə daha keyfiyyətlə və çevik baxılması məqsədilə hakim ştatlarının sayı 200 vahid artırılıb. Bununla əlaqədar açıq müsabiqə elan olunaraq namizədlərin sənədlərinin qəbulu fasiləsiz xarakter alıb. Seçim prosesi zamanı hər cür şəffaf və əlverişli şəraitin yaradılması, sualların müasir texnologiyaların tətbiqi ilə, fərdi qaydada, kompüter vasitəsilə cavablandırılması, nəticələrin dərhal elan edilməsi təmin olunub.

Ötən dövrdə yeni nəsil hakim korpusunun formalaşdırılması məqsədilə 1200-dək hakimliyə namizədlə şəffaf prosedurlarla seçim keçirilib. Bu çoxmərhələli prosesi, o cümlədən Ədliyyə Akademiyasında uzunmüddətli tədris və məhkəmələrdə təcrübəni uğurla başa vurmuş 83 nəfər müxtəlif hakim vəzifələrinə təyin edilib.

210-dək hakimliyə namizəd isə seçim prosesinin müxtəlif mərhələsindədir.

Onlardan 109 nəfəri test imtahanında müvəffəqiyyət qazanaraq müsabiqənin növbəti mərhələsinə - yazılı imtahana keçiblər.

Sentyabr ayının 15-də Dövlət İmtahan Mərkəzində həmin namizədlərlə yazılı imtahan keçirilib.

İmtahandan əvvəl Hakimlərin Seçki Komitəsi həmin binada, qapalı iclasında imtahanda istifadə edilməsi üçün cinayət və mülki sahələr üzrə kazus xarakterli suallar hazırlayıb və onlar dərhal imtahan zalına gətirilib. Namizədlər həmin suallar sırasından, təsadüfi yolla biri cinayət, biri isə mülki sahəyə aid suallar seçiblər.

4 saat davam edən imtahanda hakimliyə namizədlərə həmin sualları cavablandırmaqla, kazusları həll etmək, qoyulmuş məsələlərə düzgün qiymət vermək, qanunun məzmununu dolğun açmaqla onun səlist izahını vermək bacarıqlarını nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb.

İmtahan prosesi müşahidəçilər tərəfindən şəffaf prosedur kimi yüksək dəyərləndirilib.

# Azad Vətən Partiyası dövlət qeydiyyatına alınıb





**Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə parlaq qələbə ilə nəticələnən 44 günlük Vətən müharibəsində cəmiyyətin hər bir üzvünün vahid mövqe nümayiş etdirməsi vətəndaş cəmiyyəti ilə iqtidar arasında birliyin əyani təzahürü olub.**

